**Mirzə ƏSGƏROV**

# Gedir

Bir dolub-boşalan səhəngdi dünya,
Kim deyir o boyda nəhəngdi dünya...
Dibçəyə sığışan çələngdi dünya,
Hərə bir gülünü qoparıb gedir.

Dağın dağ dərdi var, aranın aran,
Görmədim bunların fərqinə varan.
Qışda yaylaqlara dönməyən çoban,
Yayda sürüsünü otarıb gedir.

Qovur bir-birini xeyir ilə şər,
Hər keçən gecədən doğur bir səhər.
Xəbərsiz, ətərsiz ötüşən günlər,
Aylar ömrümüzü aparıb gedir.

Gündüz günəş, gecə ay olan Mirzə,
Məcmusu sandıqda zay olan Mirzə,
Bir vaxt şairlərə tay olan Mirzə,
Sənin də dövranın qurtarıb gedir.

Türküstan.- 2023- cü il.- 24- 30 oktyabr.- S. 11.- № 38.